



Rafael Hüseynov

# İKİNCİ OLMAYACAQ

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2023

*Böyük Heydər Əliyevin gerçəkləşən arzusuna –*
*Qarabağ savaşında Azərbaycanın Zəfərinə ithaf edirəm*

**Rafael Hüseynov. İkinci olmayacaq.**
**"Elm və Təhsil" nəşriyyatı. 1008 səh., şəkilli. Bakı, 2023**

Azərbaycanın hakimiyyət tarixinin ən müstəsna şəxsiyyətlərindən olan Heydər Əliyev ilk gənclik illərindən başlayaraq səksən illik ömrünün sonunadək altmış ilə yaxın müddətdə dövlət qulluğunda oldu. Azərbaycan Respublikasını həm sovet dönəmində on dörd il, həm də müstəqillik illərində on il idarə etmiş Heydər Əliyev öz xalqının və yurdunun tarixində silinməz izlər qoymuşdur. O, XX yüzilin 90-cı illərində Azərbaycanın Sovet İttifaqının tərkibində yetmiş illik mövcudluğundan sonra yenidən qazanılmış dövlət müstəqilliyinin qorunub-saxlanması, möhkəmləndirilməsi və inkişafındakı misilsiz əməklərinə, müasir milli dövlətin qurucusu olmasına görə sevgi ilə xalqın Ümummilli Lideri adlandırılmış, yaddaşlarda əbədilik yaşamaq haqqı qazanmışdır. Kitabda zəngin arxiv materialları, Heydər Əliyevlə birgə çalışmış şahidlərin xatirələri, müəllifin uzunmüddətli müşahidələri əsasında bu təkrarsız şəxsiyyətin mübarizəli həyat yolunun dolğun mənzərəsi canlandırılır.

ISBN 978-9952-20-165-9

4603000000-349
H ------------------------ qrifli nəşr
N-098-2023

**@ Rafael B.Hüseynov, 2023**

# Həmişə vətəndə



Ömrünün sonlarında o, arxayın bir müdriklik və əmin uzaqgörənliklə "Mən həmişə Azərbaycanda olacağam" demişdi. Təbii, o qüdrətli insan da, hər kəs kimi, bir gün dünyadan köçəcəyindən agahdı.

Nə qədər uzun yaşasan da, heyhat, insan həyatı sonludur və bir az gec, bir az tez hamı gedəsidir.

Gəlimli dünyanın həm də gedimli, bütün sevinc və işrətləriylə bərabər son ucu ölümlü olduğunu bir neçə yüz il ömür sürmüş Qorqud Dədəmiz də kədərlə dilə gətirmişdi.

Allahın şah əsəri, ali xilqət olan insançün səksən, doxsan, yüz il ömür nədir ki! Amma neyləməli ki, qismətimiz belədir. Ən yetkin, ən təcrübəli, dünyanı bütün yaxşı-yamanı ilə dərk etdiyin ən püxtə çağında taqət başlayır azalmağa və qayıdışsız labüd səfərinə çıxırsan.

Di gəl, tarixə möhürünü vuranlar da olur axı. Onlardan ötrü dünyanın son ucu, hamınınkı kimi, ölümlü olsa da, gedimli olmur. Əməlləriylə, əsərləriylə, pozulmaz izləriylə hansısa seçilmişlər, nadirlər qalımlı olmağı bacarırlar.

Və böyük Heydər Əliyev artıq ömrün ixtiyar çağında tarixə, olmuşlara, Vətəninə və xalqına xeyli yüksəklərdən baxaraq başqalarının tuta bilmədiyi çox həqiqətləri gördüyü kimi, öz ömrünü və taleyini, bir parçası olduğu tarixin içərisindəki öz surətini də ucalardan seyr edirdi, aydınca görürdü ki, ömür bitsə də, yol bitməyəcək, daha heç bir qüvvə onu bu yurdun və millətin nə tarixindən, nə yaddaşından silə biləcək.

Onun həyatı XX yüzilə sığdı. Amma XXI əsri, üçüncü minilliyi də görmək onun qismətindəymiş. Təzə əsrin də üç ilini onunla birgə olduq.

Dünyanın da, Azərbaycanın da taleyindəki ən həlledici zaman parçalarından olan həmin əsrdə yurdumuzun və millətimizin həyatı-

na onun qədər uzunmüddətli, onun qədər geniş və dərin təsir göstərən dövlət başçısı olmayıb.

Ona görə də inamla həmişə Azərbaycanda qalacağını, Azərbaycanla olacağını bəyan edirdi.



Sağkən, hələ həyatdaykən öz iqbalını sadəcə təsəvvür etmək yox, inamla və tərəddüdsüz görə bilmək də bir ayrı xoşbəxtlikdir.

Bu, olmuş əhvalatdır.

1846-cı il idi və Abbasqulu ağa Bakıxanov həyatının son səfərinə çıxmışdı, Məkkə ziyarətinə gedirdi.

Və yol üstündə onun başına gəlmiş bir ibrətli əhvalatı bizə polyak Mateuş Qralevski 1877-ci ildə Lvovda çapdan çıxmış "Qafqaz. 12 illik əsirliyin xatirələri" adlı kitabında çatdırır.

Yazır ki, Abbasqulu ağa Ərdəbildə məscidə girir və axundun onun haqqında danışdığını eşidir: "İndi isə sizə cənnətməkan Abbasqulu ağanın məşhur sözlərini oxuyacağam".

Və sonra axund kitabı açıb şövqlə oradan parçaları qiraət etməyə başlayır. Oxunanlar dinləyənləri məftun edir və onları həyəcana gətirir. Bunları görən şair ağlayır və onun ağlaması məsciddəkilərin diqqətini cəlb edir.

Axund soruşur: "Ey müsafir, sən bizimlə birgə bu kitabdakı bilik qidası və nitq şəhdini dadmaq əvəzinə niyə ağlayırsan?

– Mən sevincdən ağlayıram. Siz bu kitabı tərif edirsiniz. Onu yazan mənəm..."

Hər bir insan üçün həyatda olmayacağı günlərdə necə xatırlanacağını, özündən sonrakıların ona necə qiymət verəcəklərini hansısa sehrlə görməkdən böyük nə səadət ola bilər!..

Amma belə bir qisməti hətta möcüzə şəklində belə ağla gətirmək çətindir. Tale Qüdsiyə bu səadəti nəsib etmişdi.

Əkdiyi xeyirxahlıq toxumlarının, bütün böyük və savab işlərinin müqabilində Ulu Tanrı ona elə sağkən sağ olmayacağı çağlardakı şərəfli qismətini, istiqbalını da əyan etdi.

Ərdəbildə baş verən hadisə sanki qaibdən nazil olan güzgüdə görünən gələcək idi...

Heydər Əliyev də elə bu cür – həyatdaykən həyatda olmayacağı günlərdə ürəklərdə və yaddaşlarda hansı yerin sahibi olacağını bildi.

Yaxşılıqlar etdiyi, taleyini dəyişdiyi, qarşısında üfüqlər açdığı, ona daim minnətdar olacaq sıra-sıra insanlar öz yerində, bu məmləkətin ən əziz sərvəti olan müstəqilliyi, istiqlalı qorumaq yolundakı əvəzsiz xidmətləri də öz yerində, lakin Heydər Əliyev həm də tarixi incəlikləriylə bilirdi axı.

Yaxşını fikirləşəndə mümkün bəd gedişatı da nəzərdə saxlayırdı. Tarixçi təhsili almış bir insan kimi tarixin həm zahirinə, axarına, həm də onillərcə dövlət təhlükəsizliyi şəbəkəsində çalışmış mütəxəssis kimi tarixin batininə, alt qatlarına mükəmməl bələd idi. Bilirdi ki, tarixdə imzası olanları, iz qoymuşları heç bir hökmlə, fərmanla, təzyiqlərlə tarixdən silmək, unutdurmaq mümkün deyil.

O isə yarım əsrə sığan bir zaman boyunca öndə olmuşdu, Azərbaycanın rəmzlərindən sayılmışdı, adı və imzası Azərbaycanın və azərbaycanlıların neçə nəslinin taleyinə, düşüncəsinə həkk olunmuşdu.

Tarixə münasibətlər çağa görə başqalaşa bilər, yaşanmış, dünəndə qalmış tarixin özünüsə daha heç vəchlə pozub təzədən yazmaq, dəyişdirmək mümkün deyil.

Heydər Əliyev illərin hündürlüyündən arxada qalan keçmişə baxdıqca bütün bunları görürdü və ona görə də sabahlardan nigaranlığı yoxdu.

Əmin idi ki, bu ölkədə gələcəkdə hansı siyasi küləklər əsdi-əsmədi, başlar üzərində onun portretləri asıldı-asılmadı, meydanlardakı abidələri oldu-olmadı, ürək və yaddaşlardakı surəti daha heç vaxt silinən, solan, itən deyil, tarixə qayıdıldıqca hər səhifədə o görünəcək.



*Bu görüşümüz Azərbaycan Yazıçılarının X qurultayı ərəfəsində olub. 1997, 29 oktyabr*

Bütün bunlara əmin olduğu üçün də bəxtiyar idi, o səbəbdən də könül rahatlığıyla və qətiyyətlə "Mən Azərbaycanda həmişə olacağam" söyləyirdi!

Məgər bu sözü gerçəyə çevrilməyibmi?

Məgər hər gün bizimlə deyilmi?

Azərbaycanın Millət Təqvimində 2023-cü il "Heydər Əliyev İLİ" kimi başlandı.

Və mən də düşündüm ki, bu yüz illik yuvarlaq ildönümünə öz töhfəmi verim. Təsəvvür edirdim ki, il boyu bu mövzuda yazanlar da çox olacaq, silsilə kitablar da çıxacaq. Hələ indiyədək də xeyli yazılıb.

Yazmağı qət etmişdimsə, elə başlanğıcdan əsas vəzifələrdən biri bu idi ki, il boyu üzə çıxacaq mümkün yazılar bolluğunda hansısa cəhətləriylə təzə olan, indiyədək açılmayan səhifələrə işıq salan, bu böyük şəxsiyyəti Azərbaycanın müasir mübarizəli gerçəkliyinin və mürəkkəb zamanın axarında aydın göstərə bilən kitab ortaya qoya bilim.

Heydər Əliyev haqqında mən sağlığında da, vəfatından sonra da dəfələrlə yazmışam. Haqqında ayrıca kitab qələmə almağı isə indi yox, hələ 1990-cı illərin ortalarından fikirləşirdim və xarici ölkələrə səfərlərdən birində özünə də demişdim.

Allah şahidi Heydər Əliyevin yetirməsi və məsləkdaşı, görkəmli dövlət adamı Həsən Həsənov. O da mənim niyyətimi Heydər Əliyevə ayrıca çatdırmışdı və Ulu Öndər də demişdi ki, verim arxivi, işləsin.

Məni isə yalnız arxiv qane etmirdi, istəyirdim ki, çox suallarımı verim, öz dilindən cavablarımı alım. Tarixinsə elə dönəmi idi ki, yeni Azərbaycan qurulurdu, Heydər Əliyevin hər gününün hər saatı iş-güclə dolu idi, vaxt, sözün birbaşa mənasında, yox idi. Ancaq Bakıda və Azərbaycan boyu görüşlərinin, xarici ölkələrə səfərlərinin əksərində iştirak edirdim, dinləyirdim, müşahidələrimi aparırdım, ayrı-ayrı anlar hafizəmə də, qeyd dəftərlərimə də köçürdü.

Arxada qalan illərdə Heydər Əliyev haqqında yazdıqlarım elə üst-üstə qalanarsa iri bir kitab həcmində ola bilərdisə də, məhz 2023-cü ildə, Heydər Əliyev İlində onun xatirəsinə ayrıca yeni kitabı yazıb tamamlamağı əhd etdim. Onu bütövlüyü və əzəməti ilə göstərə biləcək ayrıca kitab!

Hansısa bəlli bir aya, günədək yazıb tamamlamağı nəzərdə tutmurdum. Sadəcə, içərimdəki həmişə həddən ziyadə sıx olan iş cədvəlinə yeni yaranası bir kitabımı da əlavə edirəm. Qərara aldım ki, il boyu və hər gün, fasilə vermədən, kökləndiyim ahəngi qırmadan hökmən yazmalı!

Bu kitab maydamı bitəcək, sentyabrdamı, ya il sonunda – fərq etməz.

Bu kitab mənim kiminsə qarşısında, ya bir nəşriyyatla anlaşmamın nəticəsi kimi deyil, öz ürəyim qarşısında öhdəliyim olaraq doğulmağa başladı.

Mənim üçün ilk səhifəni yazmağa başlayandan əsas o idi ki, bu parlaq şəxsiyyət haqqında müşahidələrimi, düşüncələrimi, hisslərimi qalası bir kitab çərçivəsində dolğunluğu ilə əhatə edim. Arxivlərə baş vurum, ömrün ixtiyar çağlarını yaşayan, Heydər Əliyevi görmüş, onunla işləmiş, bu şəxsiyyətlə bağlı sinələrində xatirələr daşıyanları nə qədər ki həyatdadırlar, dindirim.

Bəlkə bu yazılar qatarı bizim günlərdə və sabah kimlərəsə bu böyük Azərbaycanlını daha yaxşı görməyə, duymağa və dərk etməyə körpüyə döndü? Amma tək onu yox ki!

O, milli tariximizin ayrılmaz bir parçasıdır və onun haqqındakı bu kitab mahiyyətcə həm də elə XX yüzilin dolanbac yollarından adlayıb sabaha doğru irəliləyən Azərbaycanımız haqqındadır.

2023-ün ilk ayının birinci günündən yazmağa başladım. Özümə şərt qoydum, mütləq gündə ən azı iki-üç vərəq yazmalı, çox olar, daha gözəl. Həm də özümün özümlə bağladığım bu şərtin bir məsuliyyət tərəfi olsun, gəldiyim qərardan hec vəchlə kənara çıxa bilməyim deyə vədimi ictimailəşdirdim, yazdıqlarımı da hər həftə “525-ci qəzet”in səhifələrində dərc etdirdim.

İlin çoxu getdi, azı qaldı. Bütün başqa işlərimin gərginliyinə, bəzən yaratdığı çıxılmaz kimi görünən tıxaclara rəğmən başlanğıcdan söz verdiyim cədvəldən qırağa çıxmadım.

Hər gün düşündüm, araşdırdım, uzun saatlar boyu arxivlərdə çalışdım, kitabxanalarda oldum, sayını itirdiyim qədər çox insanla görüşüb xatirələrini qeydə aldım. Ancaq bu böyük ömür, irəlicədən zənn etdiyim kimi, bir kitaba sığmadı.

Növbəti ildə də davam edəcəyəm və bu minvalla, yəqin ki, iki kitab – iki cild olacaq.

Neynək, biri bu il, 2023-də unudulmaz Heydər Əliyevin bitməz ömrünün birinci əsrinin tamamında insanlarımıza çatsın, ikincisi də onun davam edən həyatının ikinci yüzilinin ilk ilində.

**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

